# Vətəndaşların qəbulu keçirilib

İyulun 20-də iqtisadiyyat naziri Şahin Mustafayev Göygöldə Şəmkir, Goranboy və Göygöl rayonlarından olan vətəndaşları qəbul edib.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, qəbula gələnlər güzəştli kreditlərin verilməsi, turizmin inkişafı, heyvandarlıq, bitkiçilik, tikinti materialları istehsalı müəssisəsinin tikintisi, sanatoriya-müalicə fəaliyyətinə lisenziya verilməsi, sosial və s. məsələlərlə bağlı müraciət ediblər.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri nazir Şahin Mustafayev tərəfindən diqqətlə dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb, digər müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nazirliyin müvafiq qurumlarına konkret tapşırıqlar verilib.

İqtisadiyyat Nazirliyinin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciət edən vətəndaşlara ətraflı izahat verilib, bu müraciətlər aidiyyəti strukturlara çatdırılması üçün qeydiyyata alınıb.

Göygöldə keçirilmiş qəbulda Şəmkir, Goranboy və Göygöl rayonlarından olan vətəndaşlarla yanaşı, digər şəhər və rayonlardan olan və qəbul zamanı birbaşa müraciət edən vətəndaşlar da qəbul edilib, onların müraciətlərinə diqqətlə yanaşılıb, müraciətlərin operativ həlli üçün müvafiq tədbirlər görülüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir. İyulun 20-də nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Qax şəhərindəki Heydər Əliyev Mərkəzində şimal-qərb bölgəsindən olan vətəndaşları qəbul edib.

Qax, Şəki, Oğuz, Qəbələ, Zaqatala və Balakən rayonlarının sakinlərinin iştirak etdiyi qəbulda vətəndaşların telekommunikasiya, internet və poçt xidmətlərinin keyfiyyəti, xidmət mədəniyyəti və bu sahədə bölgə əhalisini maraqlandıran digər məsələlərlə bağlı müraciətləri dinlənilib. Qəbulda iştirak edən vətəndaşlar, həmçinin yol təmir-tikintisi, yeni marşrut xətlərinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Müraciətlərin əksəriyyəti yerindəcə həll olunub, bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər müvafiq qurumlara ünvanlanması üçün qeydiyyata alınıb.

* * *

İyul ayı üçün tərtib edilən qəbul cədvəlinə müvafiq olaraq kənd təsərrüfatı naziri İnam Kərimov iyulun 20-də Şamaxıda rayon kənd təsərrüfatı idarəsinin inzibati binasında Qəbələ, İsmayıllı, Şamaxı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin də iştirakı ilə keçirilən qəbulda 60 nəfər vətəndaşın müraciətinə baxıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub.

Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

* * *

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Lənkəran rayonunda həmin rayonun və Astara, Lerik, Masallı, Yardımlı rayonlarının sakinlərini fərdi qaydada qəbul edərək müraciətlərini dinləyib.

Qəbul zamanı həmin rayonların sakinlərinin əmək hüquqlarının müdafiəsi, sosial təminat növlərinə (pensiya və müavinət, təqaüd, sosial yardım və s.) hüququn müəyyən edilməsi, imtiyazlı şəxslərin mənzillə təmin olunması, sosial sığorta, məşğulluğun təmin edilməsi, özünüməşğulluq proqramına və reabilitasiya xidmətlərinə cəlbedilmə, əlilliyin qiymətləndirilməsi məsələlərinə dair müraciətləri cavablandırılıb. Müraciətlərin bir hissəsi sorğu xarakterli olduğundan vətəndaşlara aidiyyəti üzrə qanunvericilik əsasında izahatlar verilib. Digər müraciətlərdə əksini tapan məsələlərlə bağlı müvafiq tədbirlər görülməsi, bir sıra məsələlərin elə yerindəcə həll edilməsi üçün nazirliyin müvafiq struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Prezident İlham Əliyevin tapşırığı ilə mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən hər ay şəhər və rayonlarda əhalinin qəbulu keçirilir. Mədəniyyət naziri Əbülfəs Qarayevin vətəndaşlarla növbəti görüşü iyulun 20-də Qazax rayonunda gerçəkləşib.

Mədəniyyət Nazirliyindən bildirilib ki, nazir Qazax şəhərində Ağstafa, Qazax, Tovuz, Şəmkir, Göygöl, Gədəbəy və Daşkəsən rayonlarının sakinlərini qəbul edib.

Ədəbiyyat muzeyində keçirilən qəbulda vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri səslənib.

Qəbulda vətəndaşların müraciətlərinin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

***AZƏRTAC***

Azərbaycan.- 2018.- 21 iyul.- S. 5.